

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 129 (23.040)

13 iyul 2018-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Rəsmi xronika

İyulun 12-də Brüsseldə NATO-nun Əfqanıstanda həyata keçirdiyi əməliyyata töhfə verən tərəfdaş ölkələrin dövlət və hökumət başçılarının və potensial əməliyyat tərəfdaşlarının iştirakı ilə Qətiyyətli Dəstək missiyası üzrə Şimali Atlantika Şurasının görüşü keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 12-də Brüsseldə BMT baş katibinin siyasi məsələlər üzrə müavini Rozmari Dikarlo ilə görüşüb.



## Naxçıvan Şəhər Nəqliyyat İdarəsinə yeni avtobuslar verilmişdir





Muxtar respublikada müasir avtobusların alınaraq xəttə buraxılması və tələbata uyğun hərəkət qrafikinin seçilməsi sərnişindaşıma xidmətinin səviyyəsini xeyli artırmışdır.

İyulun 12-də Naxçıvan Şəhər Nəqliyyat İdarəsinə 5 yeni avtobus təqdim olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov bu münasibətlə keçirilən tədbirdə iştirak etmişdir.

Naxçıvan Muxtar Respublikasının nəqliyyat naziri Mirsənani Seyidov çıxış edərək demişdir ki, muxtar respublikada nəqliyyatın inkişafı sahəsində kompleks tədbirlər görülür. Sərnişindaşıma ilə məşğul olan avtobusların hərəkət qrafikinə nəzarət olunur, şəhərdaxili və rayonlararası marşrutlar müasir avtobuslarla təmin olunur. Hazırda 6 avtobus Naxçıvan-Bakı və Naxçıvan-İqdır istiqamətində, 56 avtobus isə Naxçıvan şəhərində 8 marşrut xətti üzrə fəaliyyət göstərir. Yeni alınan avtobuslar Naxçıvan şəhərində sərnişindaşıma xidmətinin səviyyəsini daha da artıracaqdır. Mirsənani Seyidov nəqliyyatın inkişafına göstərdiyi qayğıya görə Ali Məclisin Sədrinə minnətdarlıq etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov çıxış edərək demişdir: Muxtar respublikada bütün sahələrdə inkişaf və tərəqqi vardır. Bu inkişaf və tərəqqi insanların rahat yaşayışına və rifahına xidmət edir. Yeni avtobusların alınıb istifadəyə verilməsi də əhalinin rahat hərəkətinin təmin olunmasına, eləcə də sərnişindaşıma xidmətinin nümunəvi təşkilinə hesablanmışdır.



Ali Məclisin Sədri demişdir: Ordubad Dəmiryol Stansiyasının istifadəyə verilməsi, yeni sərnişin qatarlarının alınıb gətirilməsi və bu gün müasir avtobusların təqdim olunması muxtar respublikada nəqliyyatın inkişafı sahəsində görülən işlərin davamıdır. Cəmiyyətin bütün təbəqələri nəqliyyat sahəsindən istifadə edir. Ona görə də nəqliyyat sistemi və bu sahə üzrə göstərilən xidmət nümunəvi təşkil olunmalı, nəqliyyat vasitələri müasir tələblərə cavab verməlidir. Həyata keçirilən tədbirlərin nəticəsidir ki, muxtar respublikanın bütün yaşayış məntəqələri marşrutlarla təmin olunub. Hazırda muxtar respublikada 139 marşrut xəttində 400-ə yaxın avtobusla sərnişindaşıma xidməti həyata keçirilir. Bütün bunlar da əhalinin rahat və təhlükəsiz hərəkətinin təmin olunmasına, istehsal etdikləri məhsulları vaxtında bazara çıxarmalarına imkan verir.

Ali Məclisin Sədri demişdir: Nəqliyyatın inkişafı günün tələbidir. Muxtar respublikada da nəqliyyat sisteminin müasirləşdirilməsi qarşıda duran əsas vəzifədir. “Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”na uyğun olaraq bu sahədə ardıcıl tədbirlər görülür, marşrut xətlərində fəaliyyət göstərən avtobuslar yenilənir. Bu gün təqdim olunan avtobuslar da muxtar respublikanın vəsaiti hesabına alınıb gətirilib. Yeni avtobusların alınması hesabına həm də yeni iş yerləri açılıb. Ona görə də avtobuslardan səmərəli və uzun müddət istifadə olunmalı, onlar qorunmalı, əhaliyə nümunəvi xidmət göstərilməlidir.

Ali Məclisin Sədri avtobusların xəttə buraxılması və yeni iş yerlərinin açılması münasibətilə kollektivi və sürücüləri təbrik etmişdir.

Sonra Ali Məclisin Sədri açarları sürücülərə təqdim etmiş və avtobuslara baxmışdır.

Məlumat verilmişdir ki, yeni alınan “KİNG-LONG XMQ 52” markalı 5 avtobusun hər biri 22-si oturacaq, 20-si ayaqüstü olmaqla 42 sərnişin yerlikdir. Şəhərdaxili yollarda hərəkət üçün xüsusi dizayn olunan avtobuslar mexaniki sürət qutusu ilə təchiz edilib. Dizel yanacağı ilə işləyən avtobusların mühərriki AVRO 4 standartına uyğundur. Avtobusların geniş salonunda sərnişinlərin rahatlığı nəzərə alınmış, havalandırma yeri və 9 siyirməli şüşə, eləcə də 2 elektron məlumat tablosu quraşdırılmışdır.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## İnformasiya-kommunikasiya texnologiyalarının tətbiqi daşınmaz əmlak və torpaq məsələlərinin həllini sadələşdirib

Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsində daşınmaz əmlakın qeydiyyatı sisteminin inkişafı, xidmətlərin sadələşdirilməsi və vətəndaş məmnunluğunun artırılması məqsədilə informasiya-kommunikasiya texnologiyalarının tətbiqi diqqət mərkəzində saxlanılır. Komitənin məlumat bazasının formalaşdırılmasında, fəaliyyət istiqamətləri üzrə xidmətlərin əhaliyə çatdırılmasında, çöl geodeziya-ölçmə işlərinin aparılmasında bu sahənin imkanlarından geniş istifadə olunur.

Komitədə məlumatların vahid mərkəzdən idarə olunması təmin edilib. Şəhər və rayon idarələri ilə məlumat mübadiləsinin təşkili olunması üçün fiber-optik kanallar vasitəsilə idarələrin mərkəzləşdirilmiş məlumat bazasına qoşulması və mövcud məlumatlardan operativ xidməti istifadə imkanları yaradılıb.

İnformasiya-kommunikasiya texnologiyalarının tətbiqi ilə komitədə elektron məlumat bazası formalaşdırılıb, 244 minə yaxın torpaq mülkiyyətçisi barədə məlumatlar, 2700-dən artıq müxtəliftipli xəritə materialları, 54 mindən çox əmlaka dair mülkiyyət və texniki sənədlər elektronlaşdırılaraq məlumat bazasına yığılıb.

Daşınmaz əmlakın dövlət reyestrinin daha çevik və etibarlı aparılması məqsədilə tətbiq edilən elektron qeydiyyat sisteminin imkanları daha da genişləndirilib. Bu sistem ərizələri elektron formada qəbul edərək icra üçün yönəldir, daşınmaz əmlakın qeydiyyatı ilə bağlı sənədləri çap edir, müxtəlif növ hesabatlar hazırlayır.

Komitə tərəfindən göstərilən 23 növ elektron xidmətin Naxçıvan Muxtar Respublikasının Elektron Hökumət Portalı *(www.e-hokumet.nmr.az)* və komitənin internet saytı *(www.emlak.nakhchivan.az)* vasitəsilə istifadəçilərə təqdim olunması, dövlət rüsumunun və xidmət haqqının onlayn qaydada ödənilməsi təmin edilib. 2018-ci ilin birinci yarımili ərzində elektron xidmətlərdən 212 müraciət daxil olub və icra edilib.

Komitənin fəaliyyət istiqamətləri üzrə vətəndaşlara səyyar xidmətlərin göstərilməsi zamanı informasiya texnologiyalarının imkanlarından istifadə diqqət mərkəzində saxlanılıb.

Hazırda torpaqların elektron kadastr uçotu informasiya sisteminin fəaliyyətini təmin edəcək proqram təminatının yaradılması işi davam etdirilir. Bununla yanaşı, rəqəmsal kadastr xəritəsinin tərtib olunması üçün müasir geodeziya-ölçü avadanlıqlarının tətbiqi ilə çöl geodeziya-ölçmə işləri aparılır.

***Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

## Naxçıvan Biznes Mərkəzi muxtar respublika iqtisadiyyatının təbliğində əhəmiyyətli rol oynayır



***Naxçıvan şəhərində muxtar respublikanın iqtisadi inkişafını əyani vasitələrlə özündə əks etdirən bir mərkəz var. 2004-cü ildə əl işləri və sənət əsərlərinin sərgi və satışı, eyni zamanda sahibkarların tədris-informasiya mərkəzi kimi fəaliyyətə başlayan bu məkan 2011-ci ildən Naxçıvan Biznes Mərkəzi kimi tanınır. 2013-cü ildə istifadəyə verilən mərkəzin əsas fəaliyyət istiqamətləri biznesin inkişafı, sahibkarlar arasında işgüzar əlaqələrin gücləndirilməsi, müxtəlif tədbirlərin, beynəlxalq konfransların, forum və seminarların keçirilməsi, yerli istehsal məhsullarının, əl işi və sənət əsərlərinin sərgi-satışının təşkilidir.***






Bununla yanaşı, Naxçıvan Biznes Mərkəzində sahibkarlara müxtəlif istiqamətlərdə xidmət göstərilir, biznesin inkişafı üzrə onlara məsləhətlər verilir, özəl sektorda yeni addım atanlar üçün treninqlər təşkil edilir, biznes planların hazırlanmasında onlara metodik köməkliklər göstərilir. Hazırda burada müasir avadanlıqlarla təchiz edilmiş iclas və konfrans zalları, eyni zamanda dörd dildə sinxron tərcümənin aparılması üçün otaq var. Bu günlərdə mərkəzin fəaliyyəti ilə yaxından tanış olmaq üçün adıçəkilən ünvanda olduq.

Mərkəzin əməkdaşı, marketoloq Zəhra Bağırova bizimlə söhbətində bildirdi ki, muxtar respublikamızın paytaxtı Naxçıvan şəhərində belə bir ünvanın yaradılması yeni biznes əlaqələrinin qurulması, işgüzar görüşlərin keçirilməsi, sahibkarların maarifləndirilməsi, eyni zamanda muxtar respublikada istehsal olunan məhsulların nümayiş etdirilməsi məqsədi daşıyır. Hazırda mərkəzdə rus və ingilis dillərini bilən ixtisaslı kadrlar çalışırlar. Mərkəzin ekspozisiya zalında muxtar respublikada fəaliyyət göstərən sahibkarlıq subyektlərinə məxsus pavilyonlar qurulub. Həmçinin burada muxtar respublikanın son illərdə keçdiyi inkişaf yolunu, sosial-iqtisadi göstəricilərini özündə əks etdirən stendlər qoyulub, rəsm əsərlərindən və yerli sənətkarların əl işlərindən ibarət sərgi-satış təşkil olunub. Müsahibimiz bildirdi ki, buradakı pavilyonlar müvafiq istehsal və xidmət sahələri arasında bağlanmış müqaviləyə əsasən təşkil edilib. Həmin pavilyonlarda muxtar respublikada istehsal olunan ərzaq və qeyri-ərzaq məhsullarına aid müxtəlif növdə mallar nümayiş etdirilir. Hazırda burada 94 müəssisə tərəfindən 192 növdə 1000-dən çox çeşiddə məhsul sərgilənir. Həmçinin burada yerli ailə təsərrüfatlarında istehsal olunan məhsullar, ayrı-ayrı sənətkarlar tərəfindən hazırlanan əl işləri, rəsm əsərləri, xalçalar və Naxçıvan Muxtar Respublikasının istehsal müəssisələrinin xəritəsi nümayiş olunur. Muxtar respublikamızdakı iri özəl sektor təmsilçiləri olan "Gəmiqaya Holdinq", "Dizayn Holdinq", "Araz Holdinq", "Cahan Holdinq", "Zümrüd" Kiçik Müəssisəsi, "Ləzzət Qida Sənaye" Məhdud Məsuliyyətli Cəmiyyəti, Babək "Sirab" Açıq Səhmdar Cəmiyyəti ilə yanaşı, çox sayda digər orta və kiçik biznes qurumlarının məhsulları da burada öz yerini tutub. Cari ildə "İslam Mədəniyyətinin Paytaxtı Naxçıvan – 2018" loqosunun əks olunduğu yerli məhsullar da burada nümayiş olunur.

Bu il muxtar respublikanın aparıcı şirkətlərindən olan "Nəqşicahan Holdinq"ə aid pavilyon da təşkil edilib. Bundan əlavə, burada 2017-ci ildə istehsalına yeni başlanılmış məhsullardan ibarət guşə də yaradılıb. Sahibkarlarla müxtəlif istiqamətlər üzrə aparılan tədbirlərin nəticəsi kimi hazırda mərkəz tərəfindən gündəlik olaraq 30 müəssisənin 59 elektron poçt ünvanına dünyada və ölkəmizdə baş verən iqtisadi yeniliklərlə bağlı məlumatlar göndərilir. Qeyd etdiyimiz kimi, sahibkarlara metodik köməkliyin göstərilməsi, onlara müəyyən tövsiyə və məsləhətlərin verilməsi mərkəzin əsas fəaliyyət istiqamətlərindəndir. Sahibkarlığın genişləndirilməsi, hüquqi və maarifləndirici istiqamətdə xidmət göstərilməsi sırasında onların müraciətləri əsasında sahibkarlıq subyektləri üçün kiçikhəcmli kənd təsərrüfatı yönümlü, irihəcmli müxtəlif sahələrə aid biznes planların işlənilməsinə mərkəz tərəfindən dəstək verilib. Öyrəndik ki, 2018-ci ilin ötən dövründə mərkəz tərəfindən sahibkarlara kömək məqsədilə 26 belə biznes-plan hazırlanaraq təqdim olunub.

Muxtar respublikamızda xalq yaradıcılığı sahələrinin inkişaf etdirilməsinə dövlətimiz tərəfindən hərtərəfli dəstək göstərilir. Naxçıvan Biznes Mərkəzi də bu sahənin inkişafına öz töhfəsini verir. Belə ki, mərkəz tərəfindən el sənətkarlarının fəaliyyətlərinin daha da stimullaşdırılması və əl işlərinin sərgi-satış üçün qəbul edilməsi istiqamətində davamlı iş aparılır. Hazırda mərkəzdə 50-yə yaxın sənət əsəri, 230-a yaxın əl işi, o cümlədən ağac üzərində oyma, rəsm, mis üzərində döymə, xalça məmulatlarından ibarət məhsullar nümayiş etdirilir. Bundan əlavə, həmin məhsulların bir qismi Naxçıvan Biznes Mərkəzinin tabeliyində fəaliyyət göstərən mağazalarda alıcılara təqdim olunur. Duzdağ Fizioterapiya Mərkəzində, "Əshabi-Kəhf Ziyarətgahı" Dini-Mədəni Abidə Kompleksində, Heydər Əliyev prospektində fəaliyyət göstərən suvenir və hədiyyəlik mağazalarında istehlakçılar belə məhsulları əldə edə bilərlər. Son dövrlərdə mərkəzin Naxçıvan şəhərində Ucuzlaşmış Mallar Mağazası da fəaliyyətə başlayıb ki, istehlakçılar buradan müxtəlif məhsulları ucuz qiymətə əldə edə bilərlər.

Həmsöhbətimizin verdiyi məlumatlardan onu da öyrəndik ki, 2015-ci ildən başlayaraq mərkəzdə "Açıq qapı" günləri təşkil olunur. Bunun da əsas mahiyyəti odur ki, hər kəs iş saatlarında mərkəzə gələ, muxtar respublikanın sosial-iqtisadi göstəriciləri haqqında maraqlana, istehsal olunan yerli məhsullarla tanış ola, onlar barədə dolğun məlumatlar ala bilər. Yeri düşmüşkən, ötən ildən başlayaraq "Muzey günləri" çərçivəsində dövlət qurumları kollektivlərinin Naxçıvan Biznes Mərkəzinə ziyarətlərinin təşkili də yerli məhsullarımızın tanıdılması və təbliği baxımından atılan addımlardandır.

Naxçıvan Biznes Mərkəzi bu gün muxtar respublika iqtisadiyyatının, xalq sənətkarlığının inkişafında və təbliğində əhəmiyyətli rol oynayır. Buna görədir ki, mərkəz muxtar respublikamıza gələn turistlərlə yanaşı, yerli və xarici ölkələrin rəsmi qurumlarının nümayəndələrinin də marağına çevrilib. Buraya gələn hər kəs heç bir istehsal obyektinə getmədən muxtar respublikanın özəl sektoru haqqında dolğun məlumat ala bilir. Eyni zamanda Naxçıvan Biznes Mərkəzi hazırda müxtəlif biznes forumların, beynəlxalq konfransların, işgüzar görüşlərin keçirilməsinə də öz töhfəsini verir. Ümumilikdə, bu mərkəz muxtar respublika iqtisadiyyatının təbliğində əhəmiyyətli rol oynayır.

**Səbuhi HƏSƏNOV**

## Arıçılarla maarifləndirici söhbət aparılıb

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 18 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "2017-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramı"nın və bu proqramdan irəli gələn vəzifələrin icrası ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyində tərtib olunmuş tədbirlər planına əsasən görülən işlər davam etdirilir. Bu çərçivədə növbəti tədbir Culfa rayonunun Dəmirli yaylağında təşkil olunub. Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı, İqtisadiyyat, Ekologiya və Təbii Sərvətlər nazirliklərinin, Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi, Dövlət Baytarlıq Xidməti və Dövlət Baş Sığorta Agentliyi, Naxçıvan Dövlət Universitetinin və "Naxçıvan Muxtar Respublikası Arıçıları" İctimai Birliyinin arıçılıq təsərrüfatlarının sahibkarları ilə keçirilən görüşü Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin əməkdaşı Əyyub Abdullayev açıb.

Görüşdə adıçəkilən təşkilatların təmsilçiləri muxtar respublikada arıçılığın inkişafı istiqamətində həyata keçirilən tədbirlərdən danışıblar. Çıxışlarda arı ailələrinin köçürülməsinin təşkili, onlara zoobaytar qaydalarına uyğun qulluq edilməsinin, sahibkarlara dövlət maliyyə dəstəyi göstərilməsinin əhəmiyyəti, yaşıllaşdırma işlərində balyığma mənbəyi hesab olunan ağac və kol əkinlərinin genişləndirilməsi və həmin ərazilərdə ağac və kolların kəsilməsinin qarşısının alınması da vurğulanıb.

İstehsal edilən arıçılıq məhsullarının standartlara uyğun olaraq sertifikatlaşdırılması, yerli arı genofondunun mühafizəsinin əhəmiyyətindən də danışılan görüşdə arıçıları maraqlandıran suallar cavablandırılıb.

Mütəxəssislərin hazırladıqları buklet-informasiya kitabçaları sahibkarlara paylanılıb.

***Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin mətbuat xidməti***

***Müstəqilliyinin ilk illərində Azərbaycanda yeni iqtisadi sistemə keçidlə əlaqədar müxtəlif sahələrin, o cümlədən kənd təsərrüfatının gəlirli sahələrindən hesab olunan tütünçülüyün inkişafında müəyyən çətinliklər yaransa da, son illərdə dövlət tərəfindən aparılan davamlı və sistemli iqtisadi islahatlar bu problemləri aradan qaldırmaqdadır. Əsas məqsədlərdən biri tütünçülüyü inkişaf etdirmək hesabına kənd əhalisinin məşğulluğunu təmin etməkdən ibarətdir.***

## Tütünçülük kənd təsərrüfatının gəlirli sahələrindəndir



Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 10 avqust tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında tütünçülüyün inkişafına dair 2017-2021-ci illər üçün Dövlət Proqramı" muxtar respublikamızda bu sahənin inkişafına yeni vüsət verib.

Belə ki, Naxçıvanda tütün emalı sahələrinin yaradılması və xammala olan tələbatın yerli istehsal hesabına ödənilməsi üçün məqsədyönlü tədbirlər həyata keçirilir.

Dövlət proqramından irəli gələn vəzifələrin yerinə yetirilməsi istiqamətində Şərur rayonunda da müəyyən işlər görülməkdədir. Bu ilin əvvəlindən başlayaraq rayon İcra Hakimiyyətində hazırlanmış tədbirlər planına uyğun olaraq kənd yaşayış məntəqələrində bir sıra maarifləndirici tədbirlər həyata keçirilib. Əkinçilik üçün keyfiyyətli tütün şitili yetişdirilib və seçilmiş münbit torpaqlara basdırılıb. Zeyvə, Düdəngə, Maxta, Kürçülü, Kərimbəyli, Oğlanqala, Aşağı Aralıq və digər kəndlərdə, ümumilikdə, 11,8 hektar sahədə tütün əkilib.

Qeyd edək ki, tütünün kök sistemi mil şəklində olur, yaxşı şaxələnir və çoxlu saçaqlar verir. İstiliksevən bitkidir. Torpağın tipindən və botaniki sortlardan asılı olaraq tütün əkiləcək sahələrdə 27-30 santimetr dərinlikdə şum edilməlidir. Şumun dərinliyi tütünün keyfiyyətinə və məhsuldarlığa müsbət təsir edir. Şum altına hektar hesabı ilə 5-10 ton üzvi gübrə, 200-300 kiloqram superfosfat, 100-150 kiloqram kalium-sulfat, əkinqabağı hektara 100-150 kiloqram azot gübrəsi səpilir.

Şum qatında torpağın temperaturu 10-12 dərəcəyə çatdıqda, daha doğrusu, aprel-may aylarında sağlam, boyları 12-14 santimetr uzunluğunda olan şitillər sahəyə köçürülür. Vegetasiya dövründə bitkilərin dibləri və cərgəaraları alaqlardan təmizlənir.

Hər suvarmadan sonra torpaq yumşaldılır. Birinci becərmə şitil basdırıldıqdan 8-10 gün sonra 6-8 santimetr dərinlikdə, sonrakı becərmələr 10-15 gün fasilə ilə 10 santimetr dərinlikdə aparılır. Vegetasiya suvarmaları şırımla həyata keçirilir. Bu dövrdə yemləmə gübrələrinin verilməsi bitkilərin məhsuldarlığını xeyli yüksəldir. Birinci yemləmə gübrəsi kimi tütünün 2-3 cüt yarpaq fazasında suvarmadan əvvəl hektara 1-2 sentner superfosfat və azot gübrəsi verilməlidir. İkinci yemləmə isə qönçələmənin başlanğıcında aparılır.

Tütün bitkisinin becərilməsində vacib aqrotexniki tədbirlərdən biri də ucvurmadır. Bu tədbirə qönçələmənin əvvəlində başlamaq lazımdır.

Tütün növbəli əkin kimi taxıldan, çuğundurdan və paxlalı bitkilərdən sonra becərildikdə yaxşı nəticə verir. Bu bitki, öz növbəsində, payızlıq və yazlıq taxıl bitkiləri üçün yaxşı sələf sayılır.

Əsas zərərvericiləri olan danadişi, mənənə, şalalar, tütün tripisi, sovkavar, məftil qurdları, tarla ilbizi, xəstəliklərdən isə yalançı unlu şeh, kök, gövdə, qaraayaq, qara çürümələri bitkiyə ciddi zərər verir. Odur ki, xəstəlik və zərərvericilərə qarşı mübarizə vaxtlı-vaxtında aparılmasa, məhsuldarlıq xeyli aşağı düşər.

Ümumiyyətlə, bu bitki becərmədə çox diqqətli olmağı, aqrotexniki tədbirlərin düzgün və vaxtında həyata keçirilməsini tələb edir. Tarlaların indiki görkəmi onu göstərir ki, ixracyönümlü istehsal sahələrindən biri olan tütünçülükdə aqrotexniki tədbirlər vaxtında yerinə yetirilib. Bu isə o deməkdir ki, vaxtilə 2500-3000 ton tütün istehsal edilən Şərur rayonunun tütünçülük ənənələri bərpa olunmaqdadır. Yaxın günlərdə sahələrdən yetişmiş alt yarpaqların qırımına başlanacaq.

**Həsən ƏMRAHOV**
***Şərur Rayon İcra Hakimiyyətinin əməkdaşı***

## Sədərəkdə taxıl biçini mütəşəkkil həyata keçirilir



***Sərhəd bölgəmiz olan Sədərək rayonunun sakinləri torpağı qorumağı bacardıqları kimi, bu qiymətli sərvətdən səmərəli istifadə etməyi də diqqətdə saxlayırlar. Bölgədə aqrar sahənin inkişafına göstərilən hərtərəfli qayğıdan ruhlanan torpaq mülkiyyətçiləri hər il uğurlu nəticələr qazanır, məhsul bolluğu yaradılmasında fəallıq göstərirlər.***

Ən önəmli cəhət isə odur ki, Sədərəkdə də artıq əkinçi sərbəstdir. Torpağa yiyələnib, azad sahibkara çevrilib. Kiminsə hökmü ilə işləmir. Torpaqlarımız üçün məhsuldar olan əkinlərə üstünlük verir. Tədarük etdiyi məhsulun satışında da heç bir çətinlik yaşamır. Bu da kənd adamlarının əkib-becərmək imkanlarını genişləndirib.

Əsas qida məhsulu olan buğdanın əkilib-becərilməsinə və bu bitkinin məhsuldarlığının artırılmasına muxtar respublikamızın hər yerində olduğu kimi, bu bölgədə də ciddi diqqət yetirilir. Başlıca məqsəd barlı-bərəkətli torpaqlarımızdan daha çox məhsul götürmək, taxılçılığa diqqəti artırmaqdan ibarətdir.

Məlumat üçün bildirək ki, cari ilin məhsulu üçün 2466 hektar sahəyə taxıl əkilib. İndi rayonun taxıl sahələri "sarı kəhrəba dənizi"ni xatırladır. Zəmilər bolluq, bərəkətdən soraq verir.

İyulun 9-na olan operativ məlumata görə, taxıl əkini sahələrinin 952 hektarında biçin işləri başa çatdırılıb. Hektarın orta məhsuldarlığı 32,2 sentnerdir. Taxıl tədarükündə 3 ədəd kombayn və eyni sayda yükdaşıyan maşından istifadə olunur, 2 ədəd küləşbağlayan aqreqat da taxılçıların ixtiyarındadır.

**Sərxan İSMAYILOV**

## Naxçıvan dünən

### Xəstə, halın necədir?

...Neçə vaxtdan bəri muxtar respublikamızın blokada şəraitində qalması yaşayış tərzini bir az da mürəkkəbləşdirib. Evlərdə, iş yerlərində elektrik enerjisinin, lazımi istiliyin olmaması müxtəlif problemlər yaradır. Belə vəziyyət sağlam adamların da səhhətinə müəyyən dərəcədə təsir edir. Bəs xəstələrin halı necədir?

Yaxınlarının, dost-tanışlarının vəziyyəti ilə maraqlanmaq istəyənlər xəstəxanaya gələrkən onların halını sözsüz başa düşürlər. Soyuq, bəzən də qaranlıq palatalar ilk baxışda soruşmadan vəziyyəti göstərir. Naxçıvan Respublika Xəstəxanasının baş həkimi Mustafa Fətullayev də bu sözlərə şərik çıxdığını bildirir: – Xəstələrin tez sağalması üçün, ilk növbədə, palatalarda, otaqlarda lazımi istiliyin yaradılmasını əsas şərt kimi qəbul edirik. Lakin bizdən asılı olmayan səbəblərə görə zəruri şəraiti yarada bilmirik. Xəstəxanamızın qazanxanası təmirdən təzəcə çıxıb. Lakin mazut, qaz olmadığından ondan istifadə edə bilmirik. Məcbur qalan xəstələr vəziyyətdən çıxış yolunu elektrik qızdırıcılarından istifadə etməkdə görürlər. Bunun isə nə demək olduğunu hamı bilir. Standarta uyğun olmayan qızdırıcılar hər an yanğın törədə bilər... Bundan başqa, gərginlik həddindən artıq sərf edildiyindən elektrik xətləri tez-tez sıradan çıxır. Bəzən günlərlə xətlərin təmiri ilə məşğul oluruq. Elektrik, istiliyin olmaması, xüsusilə Cərrahiyyə şöbəsində vəziyyəti ağırlaşdırır. Tez-tez çətinliklərlə qarşılaşırıq. Əməliyyat apararkən elektrik enerjisinin kəsilməsinin nə demək olduğunun izaha ehtiyacı yoxdur. Xəstəxanamızda olan 5 kilovatlıq generatordan belə, çətin məqamlarda yalnız Cərrahiyyə şöbəsində istifadə edirik. 550 çarpayılıq xəstəxanada yalnız 440-a yaxın xəstəyə tibbi xidmət göstərə bilirik. Hamı başa düşür ki, bu cür vəziyyətin tezliklə aradan qaldırılması üçün yuxarı təşkilatlar tərəfindən gərgin iş aparılır. Yəqin ki, İran və Türkiyə respublikaları tərəfindən muxtar respublikamıza çəkilən elektrik xətləri istifadəyə verildikdən sonra vəziyyət nisbətən yaxşılaşar.

Ümidlə yaşamaq yaxşıdır. Amma hələlik vəziyyət, deyildiyi kimi, çətindir. Bizə isə qalır xəstələrə "yastığın yüngül olsun" deməklə onlara xoş arzularımızı bildirmək.

**X.Sadiqova**
**"Şərq qapısı" qəzeti**
**25 noyabr 1992-ci il**

## və bu gün

### Naxçıvan Muxtar Respublika Xəstəxanası bu gün xəstələrin ümid yeri, şəfqət ünvanıdır



***Ötən əsrin 90-cı illərinin əvvəllərindən blokadaya salınan Naxçıvan Muxtar Respublikasında, demək olar ki, bütün sahələrdə vəziyyət çox ağır idi. Ermənilərin çirkin əməllərinə paralel olaraq, mərkəzi hakimiyyətin də biganə münasibəti ucbatından bir tərəfdən qədim diyarımızın işğal təhlükəsi ilə üz-üzə qalması, digər tərəfdən, ərzaq qıtlığı, süfrəmizin neməti olan çörəyə belə, həsrət qalmağımız, işığın, təbii qazın olmaması, bütün bunların fonunda təbiətin də bizi sınağa çəkməsi – yayın şiddətli istilər, qışın isə sərt şaxtalar ilə müşahidə edilməsi vəziyyəti daha da gərginləşdirirdi. Yaxşı ki həmin illərdə ulu öndərimiz Heydər Əliyev Naxçıvanda idi. Məhz onun ciddi səyləri nəticəsində bir sıra problemlər həll edilirdi. Lakin yaranmış vəziyyət bütün məsələləri tam həll etməyə imkan vermir, bəzi çətinliklərin aradan qaldırılması üçün zaman tələb olunurdu...***

Həmin vaxtlarda isə ümid ilə üz tutduğumuz xəstəxanalardan çox vaxt nagüman qayıdırdıq. Yuxarıdakı məqalədə də qeyd olunduğu kimi, tibbi əməliyyat aparılarkən işığın sönməsi və bu zaman xəstənin həyatını itirməsi, qan çatışmazlığı, antisanitar vəziyyətdə olan xəstəxana palatalarında səhhəti daha da ağırlaşan insanlar həmin illərin reallıqları idi. Çox böyük xoşbəxtlikdir ki, bu gün artıq bütün bunların hamısı geridə qalıb.

Əvvəlcə onu qeyd edək ki, həmin məqalədə əhəmiyyətli bir məsələ kimi ortaya qoyulan elektrik enerjisi çatışmazlığı problemi bu gün muxtar respublikamızda, sözün həqiqi mənasında, artıq tarixə qovuşub. Ötən illər ərzində bu istiqamətdə həyata keçirilən kompleks tədbirlər və muxtar respublikanın əlverişli iqlim şəraiti, coğrafi mövqeyi alternativ və bərpaolunan enerji mənbələrindən istifadəyə imkan verib. Əgər əvvəllər muxtar respublikada 1 elektrik enerjisi istehsal edən müəssisə fəaliyyət göstərirdisə, hazırda bu müəssisələrin sayı 8-ə, ümumi gücü 239,4 meqavata çatdırılıb. Görülən işlər muxtar respublikamızı çıraqbana, enerji ixrac edən regiona çevirib. Bu gün doğma diyarımızın heç bir bölgəsində, müəssisəsində istər yay, istərsə də qış aylarında elektrik enerjisi ilə bağlı heç bir çətinlik yaşanmır. Digər tərəfdən, hər hansı bir təbii fəlakət səbəbindən elektrik enerjisinin verilişi dayandırılarsa, bu zaman bütün səhiyyə müəssisələrində və digər mühüm obyektlərdə mövcud olan elektrik generatorları dərhal işə düşəcək və bütün zəruri ehtiyaclar ödəniləcək, həkimlərimiz ümidsizliyə düşməyəcək, xəstələrimiz isə ölümə tərk edilməyəcəklər.

Digər bir tərəfdən, muxtar respublikamızda səhiyyə sisteminin keyfiyyətcə yeni dövrün tələblərinə uyğunlaşdırılması, əhalinin sağlamlığının etibarlı təminatına imkan verən müasir tibb infrastrukturunun yaradılması istiqamətində həyata keçirilən tədbirlər sosialyönümlü siyasətin mühüm tərkib hissəsi kimi diqqəti cəlb edir. Ötən illər ərzində Naxçıvanda səhiyyə sisteminin maddi-texniki bazası və infrastrukturu yüksək səviyyədə yenilənib, tibb ocaqları üçün yeni binalar tikilib, mövcud binalar yenidən qurularaq ən müasir avadanlıqlarla təchiz edilib, bu isə vətəndaşlara göstərilən tibbi xidmətin səviyyəsinin əhəmiyyətli dərəcədə yüksəlməsinə səbəb olub. Bütün bunları Naxçıvan Muxtar Respublika Xəstəxanasının timsalında da aydın şəkildə görə bilərik.





2013-cü ilin əvvəlindən burada əsaslı təmir və yenidənqurma işləri aparılıb. 2015-ci il dekabrın 1-də dövlət başçısı cənab İlham Əliyevin iştirakı ilə xəstəxananın yeni binasının açılışı olub. Açılış mərasimində çıxış edən ölkə Prezidenti ötən illər ərzində görülən yüksək səviyyəli işləri nəzərdə tutaraq vurğulayıb: ***"Xəstəxana ən yüksək standartlara cavab verir. Xarici görünüşü də çox gözəldir, əzəmətlidir, bir memarlıq əsəridir. Eyni zamanda burada quraşdırılan avadanlıq ən yüksək standartlara cavab verir, ən qabaqcıl firmaların istehsalı olan avadanlıq quraşdırılıb. Çox gözəl dizaynı var. İnteryer, palatalar, əməliyyat otaqları, dializ bölməsi də gözəldir. Yəni burada bir neçə bölmə fəaliyyət göstərir. Bu xəstəxananın istifadəyə verilməsi ilə Naxçıvanda səhiyyə infrastrukturunun yaradılması prosesi başa çatır".***

Görülən işlər "Xəstə, halın necədir?" adlı məqalədə ürək yanğısı ilə qeyd olunan "xəstələr üçün lazımi şəraiti yarada bilmirik" sözlərini də tarixə qovuşdurub. Çünki Naxçıvan Muxtar Respublika Xəstəxanasında ən müasir şərait yaradılıb, şəfa ocağının imkanları bu gün dünyanın ən müasir tibb müəssisələrinin meyarlarına uyğundur. Bütün tələblərə cavab verən xəstəxanada hərtərəfli dövlət qayğısı sayəsində tibb sənayesinin son nailiyyətlərinə söykənən texniki vasitələr, kompüter müayinə avadanlığı və sistemləri var. Burada dünyanın tanınmış təhsil ocaqlarında təcrübə keçmiş yüksək səviyyəli tibb işçiləri fəaliyyət göstərir, illərin təcrübəsini qazanan peşəkar həkimlərimiz bilik və bacarıqlarını əhalinin sağlamlığının qorunmasına sərf edirlər. 19 şöbə, 6 bölmədən ibarət olan xəstəxanadakı xidmətlərdən hər gün istifadə edən muxtar respublika sakinləri burada şəfa taparaq razılıqla ayrılırlar.

Həmin yazıda səhiyyə müəssisəsindəki ağır vəziyyətdə olan xəstələrin dözülməz şəraitdə olmasından yanarlıqla söhbət açılır. Bu gün isə səhiyyə müəssisəsinə ağır vəziyyətdə gətirilən xəstələr əvvəlcə xəstəxana binasının birinci mərtəbəsində yerləşən, hər cür tibbi avadanlıqlarla təchiz edilən Planlı təcili təxirəsalınmaz yardım şöbəsinə yerləşdirilir, burada ona ilk yardım göstərilir. Bu əhəmiyyətli bölmə barədə bizə məlumat verən şöbə müdiri Pəri Əliyeva deyir ki, burada 1 palata, 1 əməliyyat otağı mövcuddur. Palata 6 funksional çarpayıdan ibarətdir. Bütün tibbi cihaz və ləvazimatlarla – xəstəbaşı monitorlar, süni tənəffüs, portativ ultrasəs aparatları, infuziya və inyeksiya üçün infuzomatlar, immobilizasiya xərəkləri, koaqulyator, oksigen reduktorları və sair ilə tam təchiz olunub. Şöbənin 12 nəfərlik tibbi personalı xəstələrin xidmətindədir. Şöbənin dərman təchizatı xəstəxananın daxili imkanları hesabına ödənilir.

Pəri həkim onu da qeyd edir ki, xəstəxanaya daxil olan bütün növ təcili xəstələrin – avtoqəzalar, müxtəlif etiologiyalı zəhərlənmələr, təcili terapevtik xəstəliklər, beyin qan dövranı pozğunluqları, mədə-bağırsaq qanaxmaları, allergiyalar və allergik reaksiyalar və kəllə-beyin travmalarının qəbulu bu şöbədə aparılır. Xəstələrə ilkin olaraq tibbi yardım göstərilir, ehtiyac olan bütün müayinələrdən keçirildikdən sonra müvafiq şöbələrə yerləşdirilir və yaxud da Planlı təcili təxirəsalınmaz yardım şöbəsində nəzarətdə saxlanılır. Şöbənin əməliyyat otağında, sadəcə, kiçik – ambulator əməliyyatlar həyata keçirilir.

Təbii ki, nə yüksək texnologiyaya malik avadanlıqlar, nə də yüksək şərait heç vaxt həkimi, onun xəstəyə münasibətini, diqqətini əvəz edə bilməz. Qəbul şöbəsinin müdiri Ramidə Bağırova ilə söhbətimiz zamanı o da bu məsələyə toxunaraq dövlətimizin insan amilinə verdiyi yüksək qiyməti xəstələrlə ünsiyyətdə ön planda saxladıqlarını xüsusi qeyd etdi. O dedi ki, xəstənin ağır vəziyyətində həkimin qayğısı, səmimiyyəti ən təsirli müalicə vasitəsidir. Hər bir xəstəyə fərdi yanaşmaq üçün yalnız onun özünəxas müalicə üsulu tapmağa səy göstəririk.

Ağır və məsuliyyətli əməliyyatların yerinə yetirildiyi Travmatologiya şöbəsində də xəstələr üçün hər cür şərait var. Əməliyyatdan yeni çıxan gənc həkim travmatoloq-ortoped Həbib Hüseynovla söhbətimiz zamanı o, bizə əhəmiyyətli bir əməliyyat barədə söhbət açdı: – Ötənlərdə Musa Həsənov adlı şəxs sol əl biləyinin subtotal amputasiyası diaqnozu ilə xəstəxanaya daxil oldu. Onun vəziyyəti çox ağır idi. Çünki ehtiyatsızlıq ucbatından kəsici alətlə qolunun sümüyü tamamilə kəsilmişdi. Kəsilən nahiyəni müayinə etdik, ilkin tibbi yardım göstərildikdən sonra əməliyyata qərar verdik. Xəstəmizin çoxlu qan itirməsinə, əl biləyinin qopmuş vəziyyətdə olmasına baxmayaraq, qol amputasiya edilmədi, anatomik struktura bərpa olundu. Onu da deyim ki, əgər vaxtında müdaxilə olunmasa idi, xəstə nəinki sol qolunu itirəcəkdi, hətta ölüm təhlükəsi ilə də üz-üzə qalacaqdı. Belə bir vəziyyətlə illər öncə qarşılaşsaydıq, dəqiq deyə bilərəm ki, bu, xəstənin ölümü ilə nəticələnəcəkdi. Çünki həmin vaxtlarda bugünkü müasir tibbi avadanlıqlarımız, maddi-texniki bazamız, dərman və qan ehtiyatımız yox idi. Bu gün xəstəxanada yaradılan şərait biz həkimlərin də səmərəli fəaliyyətinə zəmin yaradır, bütün çətinlikləri aradan qaldırır.

Xəstəxanalar üçün qan ehtiyatının əhəmiyyətini yuxarıda qeyd etmişdik. Bu gün muxtar respublikamızda bu məsələ diqqət mərkəzində saxlanılır. Xəstəxananın üçüncü mərtəbəsində yerləşən Mərkəzi qan bankının şöbə müdiri Məmmədəli Həsənova söhbət zamanı bildirdi ki, xəstəxanada yaradılan və müasir tələblərə cavab verən Qan bankının fəaliyyəti nəticəsində muxtar respublikanın bütün səhiyyə müəssisələrinin qana olan tələbatı ödənilməklə bərabər, burada müxtəlif məqsədlər üçün qanın komponentləri olan plazma, eritrositar və trombositar kütlənin alınması, saxlanması və məqsədyönlü istifadəsi də həyata keçirilir.

Onun sözlərinə görə, ənənəvi qanvermə aksiyaları ilə əhalinin donorluğa aktiv cəlb edilməsi pullu donorluqdan tam imtina edilməsinə imkan yaradıb. Hazırda tibb müəssisələrinin və xəstələrin qana olan ehtiyacı tam ödənilir.

Xəstəxanada olarkən 11 palatalı, 33 yerlik Urologiya şöbəsində stasionar müalicə alan 70 yaşlı Fatma nənənin dediyi sözlər əvvəlki illərdəki vəziyyətlə bu günün müqayisəsi baxımından diqqətimizi cəlb etdi. O qeyd etdi ki, bir vaxtlar bu xəstəxanada işıqsız qaldığımız günlərdə yayda istidən, qışda isə soyuqdan yatmaq mümkün olmurdu. Həmin illərdə xəstəxanada müalicə olunmaq əvəzinə bəzən istinin təsirindən halımız pisləşir, bəzən isə soyuqdan daha da ağırlaşırdıq. Həkimin yazdığı dərmanları isə çox zaman tapa bilmirdik. Vaxt var idi ki, burada içməyə su da tapılmırdı. Haradan olsun? Gah işıq sönür, gah da su xətlərində nasazlıq olduğunu deyirdilər. Yaxşı yadımdadır, o vaxtlar məni əməliyyata gətirmişdilər. Yenə işıq söndü, cərrahiyyə otağında qaldım. Havanın isti olması məni əldən salmışdı. Şükürlər olsun bu günümüzə. O qədər gözəl şərait var ki, xəstə özünü evindəki kimi rahat hiss edir.

Ümumi terapiya şöbəsində müalicə alan 77 yaşlı Mələk nənə də həkimlərdən və burada yaradılan şəraitdən razılığını bildirdi: – Mən çox ağır vəziyyətdə bu şöbəyə gətirilmişdim. Düşünürdüm ki, yaşım ötüb. Yəqin ki, həkimlər heç nə edə bilməyəcəklər. Həmin gün həkimim İsmət İmanova yanımdan ayrılmadı, əlindən gələni etdi, məni ağır vəziyyətdən çıxardı, ümidlərimi özümə qaytardı. Maşallah, həkimlərimiz peşəkar, mehriban, gülərüzdürlər. Xəstəxananın da şəraiti çox gözəldir. Ən yaxşısı isə buradakı mehriban ab-hava xəstələri sağaldır. Yaradanlara, quranlara, insanlara qayğı göstərənlərə həmişə dua edəcəyəm. Allah dövlətimizi var eləsin.

Çıxışda daha bir muxtar respublika sakini ilə – Kəngərli rayonunun Yurdçu kəndindən ağır vəziyyətdə xəstəxanaya gətirilən 80 yaşlı Əbülfəz əmi ilə qarşılaşdıq. O, qəzet üçün material hazırladığımızı öyrənəndə burada dövlətimizin yaratdığı şəraitdən ağızdolusu danışdı, həkimlərdən razılığını bildirdi: – Bala, həkimlər məni o dünyadan qaytardılar. Bura gətirilməmişdən qabaq evdə birdən-birə ürəyim narahat oldu, o dünyanı görüb gəldim. Deməynən, mədəmdə yara deşilibmiş. Yolda deyirdim ki, məni evimə qaytarın, barı evimi-ocağımı görüm, gözüm nisgilli getməyim. Amma sağ olsun həkimlərimiz, məni ölümün əlindən aldılar. Əvvəlki vaxt olsaydı, yəqin ki, indi yaşamayacaqdım. Dövlətimiz, Prezidentimiz, Ali Məclis Sədri var olsunlar! Bizi həyata bağlayan, yaşadan onların qayğısı, diqqətidir!

*Fikrimizcə, Fatma, Mələk nənənin, Əbülfəz əminin bu dedikləri "Şərq qapısı" qəzetinin 25 noyabr 1992-ci il tarixli sayında dərc olunan "Xəstə, halın necədir?" sərlövhəli məqalədəki suala bu gün verilən ən yaxşı cavabdır...*

**Rauf KƏNGƏRLİ**
**Ramiyyə ƏKBƏROVA**

# Çinar ömürlü şəhər Naxçıvanım




Təbiətin bizə bəxş etdiyi sərvətlərdən biri də ağaclardır. İnsan ömrünün sonunadək ağacdan faydalanır. Uşaq ikən taxta beşikdə uyuyur, böyüyəndən sonra ağacın meyvəsindən dadır, ağacdan özünə ev qurur, qayıq düzəldib suda üzür, istisində qızınır, qocalanda isə ona söykənib yeriyir. Ağaclar da insanlar kimi dünyada baş verən hadisələrin şahidi olur, əksər hallarda elə insanlardan aldığı zərbələr ucbatından faciələrlə üzləşir, həyatla vidalaşıb, torpağa qarışır. Bu təbiət ərməğanları arasında dözümlüləri, çox yaşayanları da az deyil.

Çinar kölgəsi ana nəvazişi qədər ürəyəyatan, xəfif küləkdə isə yarpaqlarının xışıltısı ana laylası qədər şirindir. Təsadüfi deyildir ki, Azərbaycan poeziyasında çinar haqda çox deyilib, çox sözlər yazılıb. Daxili bir narahatlıq keçirən, təkliyə qapılmaq, düşünmək istəyənlərin də elə çinar kölgəsinə üz tutması, bəlkə də, əbəs yerə deyil.

Təbiət biz insanlardan sirrinin-sehrinin əksərini gizlətsə də, hələ qədim zamanlardan onlar ağacların əsrarəngiz enerjisinə inanıblar. Elə xalqımız arasında da ağacların bəziləri rəmzlərə, totemlərə çevrilib. Dağdağan koluna niyyət edib rəngli parçalar, baş örtükləri bağlanması, salxım söyüd altından axan suya sirlərin, yuxuların danışılması xalqımızın ağaclara olan sonsuz inancından xəbər verir. Tarixən dəmirağac möhkəmliyin, dözümlülüyün simvolu olubsa, çinar uzunömürlülüyü təcəssüm etdirib. Təsadüfi deyil ki, bu gün 100 yaşı adlayan insanlar barədə söhbət düşəndə "filankəs çinar ömürlü insandır" deyimini işlədirlər.

Ölkəmizin hər yerində bitən, olduqca iri gövdəyə və geniş yarpaqlara malik çinar ağacından mebel istehsalında da geniş istifadə edilir. Bununla yanaşı, son illərdə aparılan araşdırmalara görə, çinarın insan sağlamlığı üçün saysız-hesabsız faydaları da ortaya çıxıb. Onun yarpağından və gövdəsinin qabığından hazırlanan dəmləmələr və məhlullar, əsasən, qızdırmanın salınmasında, saçdakı kəpəyin təmizlənməsində, baş dərisindəki qaşınmanın qarşısının alınmasında, ilan sancmasında, eləcə də sulu və açıq yaralar zamanı istifadə olunur. Həmçinin çinarın yarpaqlarından hazırlanan çay yel ağrılarını götürür, qandakı iltihabı azaldır. Bir sözlə, çinar təbiətin qiymətli sərvətidir.

Bu gün muxtar respublikanın meşələri, qoruqları, yaşıllıq əraziləri bu ağaclarla doludur. Paytaxt Naxçıvan şəhərində də çinarlar kifayət qədərdir. Şəhərin parklarına, xiyabanlarına çətir tutan bu ağaclar isti yay günlərində insanlara mənalı istirahət bəxş edir. Şəhərin ən qocaman çinar ağaclarına Əcəmi seyrəngahında, Böyük bağda, prospekt və küçələrdə rast gəlmək olur. Biz də yolumuzu çinarlı ünvandan salıb, insanlarla çinar haqqında söhbətləşdik.

Naxçıvan şəhər sakini, 80 yaşlı Hafiz Zeynalovla elə çinar ağacının kölgəsində əyləşib həmsöhbət olduq. Onun dediklərindən:

– Hər gün dost-tanışla bu gözəl istirahət məkanında çinarın altında əyləşir, olanlardan-keçənlərdən söhbət edirik. Bəzən söhbət əsnasında ötən əsrin 90-cı illərində yaşananları da yada salırıq. Yaxşı yadımdadır, o zamanlar qocaman çinarlarımız çox idi. Lakin sovet rejiminin gətirdiyi ağrı-acılar, yanacağın olmaması, xüsusən də qış aylarında əlacsız qalan sakinlər soyuqdan qorunmaq üçün meşələrə üz tutur, təbiətin bizlərə ərməğan etdiyi ağacları kəsib doğrayırdılar. Dözümlü olan çinar ağacları da o illərdə çox əzablara qatlaşdı. Təzəcə pöhrələyən körpə çinarlar boy atmamış kökündən məhv edilirdi. Lakin sonralar bütün sahələrdə yaranan canlanma ağaclara da yeni həyat gətirdi. Bu gün söhbətimizə qulaqverən bu çinar da o illərin şahididir. Dövlətimiz tərəfindən yaradılan imkanlar sayəsində çinar ağaclarının sayı da ilbəil artır. Parklarımızda olarkən yaşıl libaslı bağbanlarla tez-tez qarşılaşırıq. Onlar istidə də, soyuqda da yorulmadan bu ağaclara qulluq göstərirlər. Düşünürəm ki, əsrlərin yadigarı olan çinarları qoruyaraq gələcək nəsillərə ötürmək xalqımızın keçmişinə verilən önəmin daha bir ifadəsidir.



Yolumuzu şəhərimizin digər bir istirahət məkanından, Böyük bağdan saldıq. Burada da gözümüzə xeyli sayda çinar ağacı dəydi. Çinar altında rahat oturacaqda əyləşib söhbət edən 3 nəfər yaşlı kişiyə yaxınlaşıb hal-əhval tutduq. Yaşı 70-i ötmüş Çingiz Axundov dedi ki, yayın bu qızmar günlərində tez-tez buraya üz tuturlar. Bu yeri baxımlı, diqqətçəkici edən amillərdən biri də qocaman çinar ağaclarının pərvazlanan qol-budaqlarıdır. Bəli, ağac da insan kimi nəfəs alır, yaşayır. Lakin bəzən onlar da həyatın keşməkeşləri, ağrı-acıları ilə üz-üzə qalırlar. Ötən əsrdə yaşanan hadisələr ucbatından insanlar kimi, çinarların da gələcəyə ümidi qalmamışdı. Lakin 70-80-ci illərdə ulu öndərimizin ölkəyə rəhbərliyi ilə hər sahəyə başlanılan qayğıkeş münasibətdən ağaclara da pay düşdü. Həmin illərdə yüzlərlə çinar ağacı həyata vəsiqə aldı. İndi başımız üzərində çətir tutan bu ağac da məhz o illərin yadigarıdır.

Digər bir həmsöhbətim Rəhim Babayev deyir ki, gəncliyimdə ara-sıra təbiət qoynuna da üz tutar, ətraf aləmlə təmasdan zövq alardım. İndi də təqaüdçü olduğum üçün günümün, demək olar ki, əksər hissəsini elə bu məkanda keçirirəm. Bu ağaclara baxdıqca cavanlıq illərim yadıma düşür. Bəzən məktəbli uşaqların çinar budaqlarından əyləncə vasitəsi kimi istifadə etmələri məni narahat edir. Dərhal onlara öz iradımı bildirir və başa salıram ki, bu ağaclar hər birimizin sağlam gələcəyi naminə buraya əkilib. Təqdirəlayiq haldır ki, aidiyyəti təşkilatlar bu işlərə həssas yanaşır. Ağaclara vaxtlı-vaxtında qulluq göstərilir. Elə bunun nəticəsidir ki, bu gün burada rahat əyləşib mənalı istirahət edir, təmiz hava uduruq. Sevindirici haldır ki, doğma diyarımızda hər bir ağacın qədir-qiyməti bilinir, qorunaraq yaşadılır. Bu diqqət bir şəhər sakini kimi məni çox sevindirir.

AMEA Naxçıvan Bölməsi Bioresurslar İnstitutunun Bitki sistematikası şöbəsinin müdiri, biologiya elmləri doktoru, professor Əliyar İbrahimov deyir ki, elmi adı platanus olan çinarın Naxçıvanda Şərq və Qərb növləri olmaqla, iki növü yayılıb. Muxtar respublikanın bütün bölgələrində rast gəlinən bu ağacın ən qocaman və yaraşıqlıları paytaxt Naxçıvan şəhəri və Ordubad rayonundadır. İllərə meydan oxuyan bu ağacı gövdəsinin yan pöhrələrindən kəsilmiş qələm vasitəsilə çoxaltmaq olur.

Çinar əzəmətinə, çinar möhtəşəmliyinə tamaşa etmək, yağan yağışda onun çətiri altında daldalanmaq, günəşin yandırıcı istisində kölgəsində sərinləmək hər bir insana xoş duyğular bəxş edir. Çinar gözəllik, ucalıq rəmzidir. Minillərə şahidlik edən uzunömürlü qədim Naxçıvana qocaman çinarlar çox yaraşır. Gün gələcək, bu gün əkilən fidanlar böyüyüb qollu-budaqlı çinarlara çevriləcək, şəhərimizin gözəlliyinə yeni bir naxış vuracaq.

*Çinar gözəllikdi, çinar xəyaldı,*
*Çinar bir həsrətin vüsal yeridi.*
*Çinar sədaqətin, saf məhəbbətin*
*Tənha ümid yeri, güman yeridi.*

✍ **Nail ƏSGƏROV**

***Dünən Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Şahbuz Rayon Kolanı Kənd Uşaq Musiqi Məktəbinin xanəndəlik ixtisası üzrə müəllim və şagirdlərinin Naxçıvan şəhərindəki "Gənclik" Mərkəzində "Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı – 2018" tədbirləri çərçivəsində "Zabul" muğam kompozisiyası təqdim olunub.***

## "Zabul" muğam kompozisiyası maraqla qarşılanıb



Konsertin aparıcısı bildirib ki, muğam sənəti 2002-ci ildə YUNESKO tərəfindən "Bəşəriyyətin qeyri-maddi mədəni irsi reprezentativ siyahısı"na daxil edilib. Təqdim olunacaq "Zabul" muğamı "Bərdaşt", "Mayeyi-zabul", "Muyə", "Manəndi-müxalif" və başqa şöbələrdən ibarətdir.

Kolanı Kənd Uşaq Musiqi Məktəbinin müəllimi Bayram Qubadlı, şagirdləri Təyyar Mədətli, Özər Hacıyev, Mətləb Şirinzadə "Zabul" muğam kompozisiyasını ifa ediblər.

Məktəbin xalq çalğı alətləri ansamblı isə onları müşayiət edib. Konsertdə səsləndirilən şöbələr və guşələr maraqla qarşılanıb. Balaca xanəndələr Məhəmməd Füzuli, Əliağa Vahid və başqa şairlərimizin qəzəllərini səsləndiriblər.

Qeyd edək ki, məktəbin adıçəkilən istedadlı şagirdləri bu il ümummilli lider Heydər Əliyevin 95 illiyinə həsr olunmuş uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəbləri şagirdlərinin muxtar respublika müsabiqəsinin laureatlarıdır.

Konsertdə C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının aktyoru, Prezident mükafatçısı Rəhman Dünyamalıyevin Xalq şairimiz Bəxtiyar Vahabzadənin "Muğam" poemasından bədii qiraət etdiyi parçalar və klassik poeziyamızdan seçilmiş nümunələr maraqla qarşılanıb.

Konsertdən sonra Naxçıvan Muxtar Respublikasının mədəniyyət naziri Natəvan Qədimova konsert iştirakçılarını təbrik edib və onlara uğurlar arzulayıb.

**Əli RZAYEV**

## Muxtar respublikada 1315 işaxtaran işlə təmin olunub

"2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın icrası istiqamətində cari ilin birinci yarısında aktiv məşğulluq tədbirləri davam etdirilib. Bu dövrdə 1315 işaxtaran işlə təmin olunub, 268 nəfər müvəqqəti və mövsümi işlərə göndərilib, 134 vətəndaş müxtəlif peşələr üzrə kurslara cəlb edilib.

Ünvanlı sosial yardımın təyini üçün rayonlarda əhalinin sosial müdafiəsi mərkəzlərinə müraciət edən 42 vətəndaş işlə təmin olunub, ailə əməyinə əsaslanmaqla uzun müddət ünvanlı dövlət sosial yardımı alan 63 aztəminatlı ailəyə fərdi təsərrüfatlarını qurmaq üçün iribuynuzlu və xırdabuynuzlu mal-qara verilib, 2 şəxsə fərdi xalçaçılıq fəaliyyəti üçün, Penitensiar Xidmətin Cəzaçəkmə Müəssisəsindən azad olunan 1 şəxsə isə arı yeşiklərinin hazırlanması üçün avadanlıqlar və materiallar təqdim edilib. Kənd xidmət mərkəzlərinin kadr təminatı ilə bağlı verilmiş tapşırıqların icrasına uyğun xidmət mərkəzlərində fəaliyyət göstərən bərbər, gözəllik salonu və dərzi sexlərində olan vakant yerlərdə 15 bərbər, 28 bərbər-manikürçü və 5 dərzi olmaqla, 48 nəfər işlə təmin olunub. Ötən dövrdə 264 tənha ahıl və sağlamlıq imkanları məhdud şəxsə evlərində, 10 nəfərə Ahıllar Evində sosial-məişət xidməti göstərilib, Əlillərin Bərpa Mərkəzində 136 şəxsin, Uşaq Bərpa Mərkəzində isə 150 uşağın müalicəsi təşkil edilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığına əsasən Naxçıvan şəhərindəki Əlillərin Bərpa Mərkəzinə və Uşaq Bərpa Mərkəzinə yeni tibbi avadanlıqlar alınıb, sağlamlıq imkanları məhdud uşaqlar üçün uyğunlaşdırılmış əyləncəli oyun sahəsi istifadəyə verilib, Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində, habelə Şərur və Ordubad rayonlarındakı bölmələrində bu kateqoriyadan olan uşaqların müasir informasiya texnologiyalarından istifadə sahəsində biliklərinin artırılması üzrə məşğələlərin təşkili, müxtəlif sosial xidmətlərin göstərilməsi davam etdirilib, maarifləndirici tədbirlər keçirilib, reabilitasiya təlimlərinə 187 uşaq cəlb olunub.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

## Ordubad rayonunda növbəti əmək yarmarkası keçirilib

Bu münasibətlə təşkil olunan tədbiri Ordubad Rayon Məşğulluq Mərkəzinin direktoru Telman Həsənov açaraq bildirib ki, işaxtaran vətəndaşların, xüsusilə gənclərin işlə təmin olunması sahəsində mühüm əhəmiyyət kəsb edən tədbirlərdən biri də muxtar respublikada müntəzəm olaraq keçirilən əmək yarmarkalarıdır. İndiyədək keçirilən əmək yarmarkalarında yüzlərlə rayon sakini işlə təmin olunub. Cari ildə də bu ənənə davam etdirilir.

Ordubad Rayon İcra Hakimiyyətinin əməkdaşı Reyhun Babayev çıxışında qeyd edib ki, rayonda aparılan tikinti-quruculuq tədbirləri mühüm infrastruktur obyektlərinin yaradılması ilə yanaşı, işaxtaran vətəndaşların da məşğulluq problemlərinin həllinə töhfə verir.

Sonra yarmarkaya gələnlər onlara təqdim edilən vakant iş yerləri ilə tanış olublar. 16 təşkilatdan 187 boş iş yerinin çıxarıldığı yarmarkada 20 nəfərə işə göndəriş verilib.

**Xəbərlər şöbəsi**

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Nail Əsgərov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1490. Sifariş № 501